İCTİMAİ ELMLƏR

UOT: 81-13 DOI: 10.34826/NAA.2022.24.3.011

# SƏTHİ TƏSVİRDƏN DƏRİNLİK TƏSVİRİNƏ HOMOMORFİZMLƏRİN VERİLMƏSİ

**Xəlili Ə.M.**

Milli Aviasiya Akademiyası

*Məqalədə ənənəvi qrammatikada (linqvistikada) leksik şəkilçilərin (sözdüzəldici) köməkliyi ilə adların (sözlərin) səthi təsvirdən dərinlik təsvirinə keçilməsində, sözdüzəldici şəkilçilərin mühüm rol oynadığı misallarla göstərilir. Həmçinin yeni yaranmış sözlərlə ilk sözlərin sintaktik və semantik təsviri verilmişdir.*

***Açar sözlər:*** *səthi təsvir, dərinlik təsviri, homomorfizmlər, semantik əlaqə, adlar və ad birləşmələri (sözlər və söz birləşmələri), aktant, denotat, predikat, dil konstruksiyaları.*

Səthi təsvirdən dərinlik təsvirinə keçmək üçün homomorfizmlərin verilməsində sözdüzəldici şəkilçilərə uyğun qaydalar dərinlik təsvirlərində müəyyən münasibətlərə uyğun gəlir. Belə şəkilçilərlə düzəldilmiş yeni sözlərlə ilkin söz arasındakı semantik əlaqələrin dərinlik təsvirinə baxılmışdır [1]. Əslində isə, biz söz desək də burada söhbət adlardan gedir. Həqiqətən də, bu şəkilçilər adlara əlavə edilərək yeni adlar yaradır.

Məsələn:
iş - iş –çi (iş görən adam),
səp(mək) – səp - in (səpil - miş (-ən) yer),
sağ(maq) - sağ- ın (sağılan inək və ya camış),
ək(mək) - ək- in (əkil- miş (- ən) yer) .
dağ- dağ-lı (dağda yaşayan (-mış) adam) (dağdan olan adam)
bağ- bağ-ban (bağa qulluq edən),
kələk- kələk- baz (kələk gələn adam),
həvəs – həvəs – kar (həvəsi olan adam),
aid - aid-iyyat (aid olan şey) ,
anla(maq) - anla-yış (anlaşılan),
asıl(maq) - asıl-qan,
bağla(maq) - bağla- ma (bağlan- mış (ılan) şey,
başlan(maq) - başlanğıc (başlanılan zaman, məkan),
bağla(maq) - bağla-yıcı,
baş - baş-çı (başda duran(olan) adam),
baş - baş-lıq (başda duran (başa qoyulan) şey),
birləş(mək) - birləş-mə (bir olma (q)),
çıx(maq) - çıxış$^1$(çıxmaq üçün yer), çıxış$^2$(çıxıb danışma),
dart(maq) - dartqı (dartmaq üçün qurğu),
dəstləşdir(mək) - dəstləşdirici (dəstləşdirən şey),
döşəmə - döşənilən yer,
ədəbiyyat- ədəblə məşğul olan elm,
istifadəçi - istifadə edən şəxs,
yay - yaylaq,
qış - qışlaq (qışlanılan yer),
ot- otlaq (ot olan yer),
qalın - qalınlıq, (qalın olan şey, əşya),

qurul(maq) – quruluş (ölkə), (qurulmuş),
malik- malikiyyət (malik olmaq),
mənsubiyyət- mənsubluğa malik olan,
milliyyət - hər hansı milliyyətə mənsub olan şəxs,
hazırlanma - hazır olma (q),
şəkil - şəkilçi (leksik şəkilçi, söz köklərinə artırılan sonluq), (şəkil çəkən),
üz - üzlük (üzə çəkilən),
ön - önlük (mətbəx işi görərkən önə bağlanılan şey),
ön - öndər, öndə (qabaqda) gedən, ulu öndər,
göz - gözlük, (çeşmək, eynək) gözə taxılan alət.

Göründüyü kimi, yuxarıda sadaladığımız adlar (düzəltmə isimlər) ad birləşmələrinin, şəkilçilərin nəticəsində formalaşmışdır. Belə hallara qoşmalarda da təsadüf olunur.

Məsələn: kitab ilə - kitabla, sənin üçün - səninçün və s.

Qeyd etmək lazımdır ki, bunlar yeni adlar olmayıb, onların aktantları olduqları predikatların dərinlik hallarına [1] uyğun formalarıdır. Bunlar ismin hal şəkilçiləri ilə dərinlik halları baxımından eynidirlər.

Düzəltmə isimlərin əmələgəlmə yollarının tədqiq olunması onların adlandırdığı denotatların, əmələ gəldiyı adların adlandırdığı denotatlarla münasibətlərinin düzgün təyin edilməsini mümkün edir.

Digər qrup şəkilçilər sözdəyişdirici (qrammatik) şəkilçilərdir ki, bunlar adlara əlavə edilərək heç də yeni ad yaratmırlar. Bunlar yalnız adların formasını dəyişərək onların adlandırdığı denotatların digərləri ilə hansı münasibətdə olmasını göstərmək üçün istifadə edilir.

Məsələn: Əli - nin kitab - ı.

Bu üçüncü növ təyini ad birləşməsi iki addan Əli və kitab adlarından düzələrək onların adlandırdığı denotatların arasındakı münasibəti bildirir. Belə münasibətlərə və digərlərinə baxılmışdır [1].

Bu şəkilçilər arasında -ın$^4$ şəkilçilərinə baxaq. Bunlar həm sözdüzəldici (isim düzəldən – ax - ın, ək - in, səp - in və s.), həm də sözdəyişdirici (ismin yiyəlik hal – kitab - ın, felin məchul növ kateqoriyası-al-ın (maq), bil- in(mək), ox - un(maq) və s.) şəkilçiləri kimi işlədilir və dərinlik təsvirlərində uyğun münasibətləri inikas edir.

Elə adlar da vardır ki, ilk baxışdan onların başqa adlardan düzəldiyi güman edilə bilər. Məsələn:

İsimlər: **Ara-**n, **Qoş-**un, **Oy-**un,
Sifətlər: **Qal-**ın, **Dər-**in.
Fellər: **Sev-**in(mək), **Ov-**un(maq), **Soy-**un(maq), **Çək-**in(mək), **Daş-**ın(maq), **Uç-**un(maq).
**Düş-**ün(mək), **Sür-**ün(mək), **Döy-**ün(mək), **Təp-**in(mək).

Bu adlarda səhvən güman edilə bilən köklər **qalın şriflə** verilmişdir. Əgər bu adlardan həqiqətən də, biri digərindən düzəlmiş olsaydı, onda ya bu adların adlandırdığı denotatlar arasında müəyyən bir əlaqə, ya da ki, bir ad o biri adın müəyyən bir forması olmalı idi. Ona görə də, verilən zəncirlər heç də kök deyildir.

Aydınlıq gətirmək üçün sintaktik analiz zamanı sevinmək və sevilmək fellərinin araşdırılmasına baxaq. Sintaktik analizator «sev» zəncirini oxuduqdan sonra onu əvvəl sözə və sonra da ada çevirmək üçün zəncirin davamını oxumalıdır. Növbəti zəncir «in» olduqda bu zəncir şəkilçiyə çevrilmədən sev zəncirinə birləşərək sevin zəncirini əmələ gətirir. Sevin zənciri öz növbəsində sözə çevrilərək Sevin(mək) predikat adının (felin) kökünün təsviri olur və növbəti addımda predikat adına çevrilir. Bu araşdırmaların nəticəsində qurulmuş sintaktik ağacı şəkil 1-də verilmişdir.

«Sevil» zəncirinin araşdırılması zamanı «Sev» zənciri oxunduqdan sonra, «il» zənciri oxunaraq məchul növ kateqoriyası şəkilçisinə çevrilir və buna görə də «Sev» zənciri də «sevmək» predikat adının təsviri olan «sev» adına çevrilir. Daha sonra bu ad «sev» predikat adının kökünə çevrilərək «il» şəkilçisilə birləşib həmin adın məchul növ kateqoriyasını [1] əmələ gətirir. Bu araşdırmaların nəticəsində qurulmuş sintaktik ağac şəkil 2 -də verilmişdir.




Şəkil1. Sevin (mək) predikat adının kökünün araşdırılmasının sintaktik ağacı




Şəkil 2. Sevil (mək) predikat adının kökünün sintaktik ağacı

Əkin zəncirinin araşdırılması zamanı «ək» zənciri əvvəl ada sonra isə əkmək predikat adının kökünə çevrilir. Növbəti addımda sintaktik analizator «in» zəncirini oxuyaraq, onu isim düzəldən şəkilçiyə çevirir. Bunun nəticəsində ək(mək) predikat adının kökü ilə birləşərək yeni ad - isim əmələ gətirir. Bu araşdırmaların nəticəsində qurulmuş sintaktik ağac şəkil 3-də verilmişdir.




Şəkil 3. Əkin sözünün düzəltmə adının sintaktik ağacı

Ək(mək) adının (e) adlandırdığı predikatla (a) əkin adının(c) adlandırdığı denotat (b) arasında münasibət şəkil 4-də verilmişdir. Bu münasibət homomorfizmə əsaslanaraq sintaktik ağacda «in» zəncirinin sözdüzəldici şəkilçiyə çevrilməsinə uyğun gəlir




Şəkil 4. Ək və əkin sözlərinin ifadə etdiyi adların adlandırdığı denotatlar arasındakı münasibət

Göründüyü kimi, əkin zəncirinin təsvir etdiyi sözün (d) ifadə etdiyi adın (c) adlandırdığı denotat (b) predikatın aktantlarından biridir. Burada «olunan (muş) yer» isə dərinlik halının adıdır [1].

Aydındır ki, gətirilmiş misallarda və eləcə də digər dil konstruksiyalarının sintaktik ağaclarının qurulması Azərbaycan dilinin formal qrammatikasının qaydalarının verilməsindən asılıdır. Bu qaydaların verilməsindən həm də dərinlik təsvirlərinin düzgün qurulması asılıdır. Başqa sözlə, bu qaydalar elə verilməlidir ki, səthi təsvirdən dərinlik təsvirlərinə [1] qomomorfizmlər düzgün təyin edilə bilsin.

**Nəticə.** Beləliklə də, şəkilçilərin və şəkilçiyə bənzər zəncirlərin düzgün araşdırılması və bunun üçün onların Azərbaycan dilinin formal qrammatikasında qaydalarının verilməsi qomomorfizmlərin düzgün təyin edilə bilməsi üçün mühüm əhəmiyyət kəsb edir. Şəkilçilər arasında istifadəsinə görə müxtəlifliyi ilə seçilən -ın$^4$ şəkilçilərini xüsusi qeyd etmək lazımdır.

## ƏDƏBİYYAT

1. Allahverdiyev C.E., Əliyev T.M., Xəlili Ə.M. Azərbaycan dilində sadə fellər, onların növ kateqoriyaları və vacib aktantları I. MAA Elmi Məcmuələri, cild 5, №1, 2003, səh. 66 - 78.

## REFERENCES

1. Allahverdiyev C.E., Aliyev T.M., Xalili A.M. Azerbaycan dilinda sade feller, onların nov kateqoriyalari ve vacib aktantlari I. MAA Elmi Mecmueleri, cild 5, № 1, 2003, seh 66 - 78.

## *ASSIGNMENT OF HOMOMORPHISM FROM A SURFACE REPRESENTATION TO A DEPTH REPRESENTATION*

***Khalili A.M.***
*National Aviation Academy*

*In the article, it is shown with examples that in traditional grammar (linguistics) lexical suffixes (word modifiers) play an important role in changing names (words) from surface description to deep description. Syntactic and semantic description of first words with new words is also given.*

***Key words**: surface description, depth description, homomorphisms, semantic relation, names and name combinations (words and word combinations), actant, denotation, predicate, language constructions.*

## *ЗАДАЧА ГОМОМООРФИЗМА ОТ ПРЕДСТАВЛЕНИЯ ПОВЕРХНОСТИ К ПРЕДСТАВЛЕНИЮ ГЛУБИНЫ*

***Халили А.М.***
*Национальная Академия Авиации*

*В статье на примерах показано, что в традиционной грамматике (лингвистике) лексические суффиксы (модификаторы слов) играют важную роль в переходе имен (слов) от поверхностного описания к глубинному описанию. Также дается синтаксическое и семантическое описание первых слов с новыми словами.*

***Ключевые слова**: поверхностное описание, глубинное описание, гомоморфизмы, семантическая связь, имена и словосочетания (слова и словосочетания), актант, денотат, предикат, языковые конструкции.*

***Rəyçi: fil.f.d, dos. Ə.M. Abbasov***

**Müəllif haqqında məlumat**

| Soyadı, adı, atasının adı | İş yeri | Vəzifəsi, elmi dərəcəsi, elmi adı | Əlaqə |
|---|---|---|---|
| Xəlili Ələddin Mirxəlil oğlu | Milli Aviasiya Akademiyası | Dil və ictimai fənlər kafedrasının dosenti, fil.f.d. | mob: (+994)50 280 86 40 |